# “Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik”

Silahlı Qüvvələrimiz 44 gün davam edən İkinci Qarabağ müharibəsində parlaq uğur qazandı. Dövlətimizin başçısının Bakıda Hərbi Qənimətlər Parkının açılışında böyük qürurla qeyd etdiyi kimi, Azərbaycan nəinki XXI əsrin müharibəsini nümayiş etdirdi, həmçinin dünyada heç vaxt görünməyən möhtəşəm Qələbəni reallaşdırdı. Ordumuz çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında peşəkarlıq, məharət, güc qoydu, hərbi elmin sirlərindən yararlandı və istədiyinə nail oldu, işğalçını torpaqlarımızdan qovdu.

Azərbaycan haqq savaşına son 17 il ərzində ciddi hazırlaşdı. Həyatın bütün sahələrində ciddi islahatlar apardı, iqtisadiyyatın inkişafına mühüm önəm verdi, beynəlxalq münasibətlər sistemində möhkəmlənmək üçün müstəqil siyasət yürüdərək, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əməkdaşlığını gücləndirdi. Ən əsası isə güclü, müasir ordu yaradılması məsələsini diqqət mərkəzində saxladı. Müasir döyüşlərin aparılmasında mühüm əhəmiyyət daşıyan hərbi texnika aldı, son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahları hərbi arsenala daxil etdi. Bununla da Silahlı Qüvvələrimizin döyüş imkanları tamamilə modernləşdirildi. Bütün bunlarla bərabər, ordumuzda şəxsi heyətin ruh yüksəkliyi ən yüksək səviyyəyə qaldırıldı. Başqa sözlə, Azərbaycan Ordusu təkcə silah və müasir texnika gücünə yox, həm də yüksək döyüş ruhu, vətənpərvərlik nümunəsi ilə möhtəşəm uğurlara imza atdı, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübut etdi. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunan torpaqlarda yaratdığı müdafiə xətlərini, mühəndis qurğularını şücaətlə dağıtdı, komanda məntəqələrini, çoxsayda hərbi texnikasını, canlı qüvvəsini məhv etdi. Bu, Silahlı Qüvvələrimizin dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsinin əbəs deyilmədiyini təsdiqlədi. Beləliklə, Azərbaycan Ordusunun döyüş ruhu, texniki üstünlükləri işğal olunmuş ərazilərdə düşmənin mühüm obyektlərini darmadağın etməyə imkan verdi.

***Ötən il sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq, Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlardan, artilleriya qurğularından, minaatanlardan intensiv atəşə tutması nəticəsində başlanan Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə yeni səhifələr yazdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin 17 illik gərgin siyasi-diplomatik səyi, dövlətçilik təcrübəsi, torpağına bağlılığı, əsgər və zabitlərimizin ruh yüksəkliyi, nəhayət, xalq-ordu birliyi öz məntiqi nəticəsini göstərdi: Azərbaycan hərbi-siyasi Qələbə əldə etdi. Bununla da bölgədə yeni geosiyasi reallıq yarandı.***




Yeri gəlmişkən, ordu quruculuğunda reallaşdırılan mühüm tədbirlərin nəticəsidir ki, 2020-ci ildə Azərbaycan Ordusu “Qlobal Atəş Gücü” (“Global Firepower”) indeksi üzrə 64-cü yerdə qərarlaşıb. Ermənistan ordusu isə bu siyahıda 111-ci yeri tutub. Məhz bu göstəricilər Azərbaycanın müharibədə qalib gəlməsini şərtləndirib.

“Global Firepower”a görə, aktiv döyüş əməliyyatlarının başlandığı dövrdə Azərbaycanın hərbi qüvvələri 426 min nəfər təşkil edib. Ermənistanda isə bu göstərici 1,5 dəfə az – 245 min nəfər olub. Hava qüvvələri baxımından da Azərbaycan Ermənistanı 64-ə qarşı 147 təyyarə və helikopterlə iki dəfədən çox üstələyib.

Silahlı Qüvvələrimiz Vətən müharibəsində haqqa, ədalətə söykəndi, beynəlxalq konvensiyalara əsaslandı. Ermənistan isə uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutdu. Lakin buna baxmayaraq, ordumuz düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırdı.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdim. Ordumuzun uğurlu əks-hücum əməliyyatları nəticəsində düşmən texnikasının böyük bir hissəsi məhv edildi, bir hissəsi də qənimət kimi götürüldü. Bu, kapitulyasiyaya imza atan Ermənistanın, həmçinin ona havadarlıq göstərən dövlətlərin illərlə yaratdıqları “məğlubedilməz erməni ordusu” mifinin darmadağın edilməsi demək idi.

Hazırda həmin texnika Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Bu, eyni zamanda, Azərbaycan Ordusunun güc-qüdrətindən xəbər verir. Bu məqamda xatırladaq ki, xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev paytaxtda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında keçən il dekabrın 3-də müvafiq sərəncam imzaladı. Ötən müddətdə sənədin icrası istiqamətində mühüm işlər görüldü və nəhayət, dövlətimizin başçısı aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak etdi.



Paytaxtın Xətai rayonunda yaradılan parkdakı eksponatların arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində “Qarabağ Azərbaycandır!” şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış “İsgəndər-M” raketinin qalıqları bir tərəfdən Azərbaycan Ordusunun güc-qüdrətindən, digər tərəfdən işğalçının faşist xislətindən, vəhşiliyindən, hərbi cinayətindən xəbər verir.

Dövlətimizin başçısı Hərbi Qənimətlər Parkının açılışındakı çıxışında azad edilmiş torpaqlara ezam olunan insanların və xarici qonaqların erməni vəhşiliyini öz gözləri ilə gördüklərini, bu barbarlığın heç vaxt unudulmayacağını vurğulayaraq, qeyd edib ki, orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər ki, dəmir yumruq yerindədir, lazım olarsa, onların başını əzərik və buna əbədi son qoyarıq.

Prezident İlham Əliyev daha sonra deyib: “Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. Bugünkü təntənəli mərasimin yeri təsadüfən seçilmədi. Biz bu mərasimi Yeni Bulvarda keçiririk. Yeni Bulvar mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl salınmışdır. Yeni Bulvarın uzunluğu 12 kilometrdir. Müqayisə üçün deyə bilərəm ki, köhnə bulvarın uzunluğu cəmi 3 kilometrdir. Bu bulvarın salınması dövlətimizin qüdrətini göstərirdi, xalqa olan qayğını göstərirdi. Bu, yenilik idi, inkişaf idi, bu, bizim gücümüzün təzahürü idi. İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir”.

Prezident daha sonra dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələrin İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrəndiklərini, öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istədiklərini vurğulayıb. Dövlətimizin başçısı haqq savaşımızda Azərbaycanın XXI əsrin müharibəsini nümayiş etdirdiyini, eyni zamanda, çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında peşəkarlıq, məharət göstərilməklə, dünyada heç vaxt olmayan Qələbənin qazanıldığını bildirib.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*